# ARZULAR, ARZULAR...



**Əziz həmvətənlərimiz!**

Artıq yeni təqvim ilinin astanasındayıq, qarşıda böyük bayramımız – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü var!

Azərbaycan yola saldığımız 2017-ci ildə də yüksək səviyyədə ev sahibliyi etdiyi nüfuzlu beynəlxalq tədbirlərlə dünyanın diqqət mərkəzində oldu. IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, IX Beynəlxalq Rostropoviç Festivalı, Bakı Şopinq Festivalının yaz və payız mövsümləri, IV İslam Həmrəyliyi Oyunları, II Respublika Xalq Teatrları Festivalı, Üzeyir Hacıbəyli IX Beynəlxalq Musiqi Festivalı, V Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası, V Beynəlxalq Azərbaycan Xalçası Simpoziumu, XII Bakı Beynəlxalq Caz Festivalı, IV Bakı Beynəlxalq Turizm Filmləri Festivalı və digər əhəmiyyətli tədbirlər Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun artmasına daha geniş imkanlar yaradır.

Eyni zamanda TÜRKSOY-un 2018-ci ili türk dünyasının digər iki nəhəng şəxsiyyəti ilə bərabər, həm də korifey bəstəkarımız Qara Qarayevin əziz xatirəsini "Anma ili" elan etməsi, Şəki şəhərinin YUNESKO-nun "Yaradıcı şəhərlər şəbəkəsi"nə aid olunması, Azərbaycanın YUNESKO-nun Ümumdünya İrs Komitəsinin vitse-prezidenti seçilməsi, kamança hazırlanması və ifaçılıq sənəti, dolma hazırlanması və paylaşması sənətinin YUNESKO-nun "Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahı"sına daxil edilməsi 2017-ci ilin ən yaddaqalan hadisələri sırasındadır.

Dövlətimizin başçısı cənab İlham Əliyevin sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam həmrəyliyi ili" elan olunması, bu kontekstdə keçirilən müxtəlif tədbirlər respublikamızda islam ənənələrinin sarsılmazlığına töhfədir, Azərbaycanın birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mədəniyyətimizin tərəqqisinə yüksək səviyyəli qayğısı isə hamımızı daha böyük nailiyyətlərə ruhlandırır.

Təbii ki, ölkəmizin dünyada layiqincə tanıdılmasında, mədəni irsimizin qorunub zənginləşdirilməsində, xalqımızın qonaqpərvərlik ənənələrinin təbliğində, nəinki şəhərlərimizin, hətta regionlarımızın da turizm mərkəzinə çevrilməsində mədəniyyət və turizm sahələrində çalışan minlərlə vətəndaşımızın rolu və əməyi danılmazdır. Amma biz bunlarla kifayətlənmirik. Vətənimizin çiçəklənməsi, doğma Azərbaycanımızın dünyanın ən məşhur mədəniyyət və turizm məkanı kimi daha yüksək tərəqqisinə çalışırıq.

Mədəniyyət və turizm ictimaiyyətini, **"Mədəniyyət.AZ"** jurnalının kollektivini və oxucularını, bütün xalqımızı, ölkəmizin dostlarını yeni təqvim ili və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik edir, torpaqlarımızın bütövlüyü, mədəniyyətimizin dünyada təbliği istiqamətində uğurlar, xeyir-bərəkət, sülh, əmin-amanlıq, cansağlığı diləyirəm!

**Əbülfəs Qarayev,**
**Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri**

**Hörmətli "Mədəniyyət.AZ" dərgisinin oxucuları!**



Bir neçə gündən sonra ömür kitabımızın daha bir səhifəsini çevirərək 2017-ci ili geridə qoyacağıq. Yola saldığımız il elmimiz üçün də bir sıra uğur və nailiyyətlərlə yaddaşlara həkk olunacaq. Əslində, elmin özü də mədəniyyətin bir ifadəsi, insanın təfəkkür fəaliyyətinin təzahürüdür. Nəzərə alsaq ki, **"Mədəniyyət.AZ"** jurnalı həm də AAK-ın tövsiyə etdiyi nəşrlər siyahısındadır, deyə bilərik ki, Azərbaycan elminin inkişafında bu dərginin də özünəməxsus rolu var və Milli Elmlər Akademiyası prezidenti kimi bizim də sizə təbrikimiz tamamilə məntiqəuyğundur.

Bu gün dönüb geriyə baxdıqda 2017-ci ildə elmi mühitimizdə bir sıra yaddaqalan hadisələrin baş verdiyini aydın görmək mümkündür. Elmlər Akademiyası, onun institut və müəssisələri gündəlik fəaliyyətlərində həyatımızın hər sahəsini əhatə edir. Tarixçilərimiz və arxeoloqlarımız keçmişimizin qədim qatlarını tədqiq edərək xalqımızın salnaməsini yazır, ömürlərini dəqiq elmlərə həsr etmiş mütəxəssislərimiz gələcəyimizin daha mükəmməl olmasını təmin etmək üçün var gücləri ilə çalışır, filosof və ədəbiyyatşünaslarımız yeni-yeni düşüncələr irəli sürür və bədii irsimizi daha da zənginləşdirirlər. Qətiyyətlə demək olar ki, bu gün elmimiz Xəzərin dərinliyindəki neft yataqlarının kəşfindən ta Azərbaycan süni peyklərinin orbitə çıxarılmasına qədər bütün sahələrə öz töhfəsini verməkdədir.

Ölkəmizin tərəqqisinə fayda verən böyük işlər fonunda cari ildə görkəmli mədəniyyət xadimləri Molla Pənah Vaqif, Hüseyn Cavid və başqalarının irslərinin araşdırılaraq xalqımıza çatdırılması da mühüm və faydalı fəaliyyətlər idi. Əməkdar incəsənət xadimi və əməkdar elm xadimi, tanınmış sənətşünas Zemfira Səfərovanın, eləcə də zəmanəmizin görkəmli bəstəkarları Arif Məlikovun və Firəngiz Əlizadənin Milli Elmlər Akademiyasının tərkibinə seçilmələri isə mədəniyyət sahəsinə elmin diqqətinin göstəricisidir.

Alimlərimiz yalnız ölkə daxilində deyil, onun hüdudlarından kənarda – ABŞ, İngiltərə, İsveçrə, Rusiya, Çexiya və neçə-neçə başqa dövlətlərdə öz həmkarları ilə birgə çalışır, yeni ixtiralara imza atırlar, lakin elmi axtarışlar tükənməz proses olduğu üçün biz bunlarla kifayətlənmirik. Ölkə prezidenti, möhtərəm İlham Əliyevin qərarına əsasən, akademiyada təsis olunan magistratura pilləsi 72 il əvvəl, xalqımızın görkəmli ziyalıları, o cümlədən böyük mədəniyyət xadimləri Üzeyir Hacıbəyli, Səməd Vurğun, Mirzə İbrahimov, Mikayıl Hüseynov, Sadıq Dadaşov tərəfindən yaradılmış Milli Elmlər Akademiyasının bundan sonra da etibarlı əllərdə olacağına bizdə əminlik yaradır.

Arzum budur ki, **"Mədəniyyət.AZ"** jurnalı 2018-ci ildə də öz səhifələrində elmin inkişafına təkan verən maraqlı, rəngarəng, fundamental məqalələrə yer versin.

Qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və yeni təqvim iliniz mübarək olsun!

**Akif Əlizadə,**
**AMEA-nın prezidenti, akademik**

**Dəyərli dostlar!**



2017-ci il respublikamızın mədəni, ictimai həyatında əlamətdar hadisələrlə yaddaşlara köçür. Əlbəttə, əldə edilən uğurlar yalnız aid olduğu ildə qalmayıb qarşıdan gələn yeni təqvim ilinə də müəyyən istiqamətlər verir, daha böyük uğurlara həvəs və inam yaradır. Mən "həvəs" sözünü işlədərkən ölkəmizin mədəniyyət və turizm kimi çox önəmli əməli fəaliyyət sahələrinə məsul olan nazirliyin, eyni zamanda Heydər Əliyev Fondunun, digər əlaqədar qurumlarımızın məsələlərə peşəkarcasına yanaşmasını, yeni üfüqlərə boylanmağın əsasını yaratdığını qeyd etmək istərdim. Onu da vurğulamaq istərdim ki, xalqımızın qədimlərə söykənən zəngin mədəniyyəti, bəşər sivilizasiyasına bəxş etdiy dühalar bizim hamımızın əsas istinadgahımızdır. Ümummilli liderimizin "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir" kəlamını və Azərbaycanımızın ümumi inkişafı üçün gördüyü işləri də minnətdarlıq duyğuları ilə xatırlamaq yerinə düşər.

Fürsətdən istifadə edib demək istərdim ki, xalqımızın, dövlətimizin mədəniyyət tarixinə çevrilən hadisələr haqqında bir-birindən maraqlı materiallarla çıxış edən **"Mədəniyyət.AZ"** jurnalı üçün yeni təqvim ili ərəfəsində təbrik yazmaq mənimçün xoşdur. Hər sayında teatrlarımız, muzeylərimiz, sənətçilərimiz, musiqi irsimiz, kino və milli rəngkarlığımızın dünəni, bu günü (və sabahı), uluslararası arenada qazanılan uğurlar, eləcə də ölkəmizin turizm imkanları haqqında maraqlı yazılar verən, alimlərimizin, gənc tədqiqatçılarımızın elmi məqalələrini dərc edən jurnalın kollektivinə, ölkəmizin mədəniyyət və incəsənət xadimlərinə ən xoş diləklərimi yetirir, yeni ildə yeni uğurlar arzulayıram!

**Nizami Cəfərov,**
**Azərbaycanda Atatürk Mərkəzinin müdiri, akademik, millət vəkili**

# Arzular, arzular...



**Möhtərəm mədəniyyət xadimləri!**

Ötən il bir sıra yaradıcı məqamları ilə bizim orkestr üçün yaddaqalan oldu. Hörmətli prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə orkestr üzvlərinin maaşlarının artırılması daha məhsuldar çalışmağımıza stimul verdiyinə görə ölkə başçımıza rəhbərlik etdiyim orkestr adından sanbalı ilə seçilən **"Mədəniyyət.AZ"** jurnalı vasitəsilə minnətdarlığımı çatdırıram. Zəhmətimizə verilən dəyəri, qiyməti doğrultmağa çalışacağıq.

Yeni ildə bütün xalqımıza cansağlığı, xoşbəxtlik, uğurlar və taleyüklü məsələlərdə həmrəy olmağı arzulayıram.

**Rauf Abdullayev,**
**Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestrin bədii rəhbəri və baş dirijoru, Xalq artisti, Dövlət mükafatı laureatı**

Arzular, arzular...



**Hörmətli Zöhrə xanım!**

Baş redaktoru olduğunuz **"Mədəniyyət.AZ"** jurnalı bu gün respublikamızda Azərbaycan mədəni irsinin qorunub saxlanması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə ön sıradadır. Yeniləşən Azərbaycan mədəniyyətinin dünyada tanıdılması istiqamətində ciddi addımlar ataraq Azərbaycan mədəniyyətinin yüksək səviyyədə təqdimatı və qəbul edilməsində nə qədər yüksək fikir formalaşdırdığının dəfələrlə şahidi oluruq.

**"Mədəniyyət.AZ"** jurnalının peşəkar fəaliyyəti milli mədəniyyətin inkişafını, zəngin mədəni irsin qorunmasını və təbliğini zəruri sayır. Milli mədəniyyəti qorumaq, inkişaf etdirmək və gələcək nəsillərə çatdırmaq, qədim və zəngin mədəniyyətimiz barədə geniş təsəvvür yaratmaq jurnalın başlıca amalıdır.

Yeni ildə sizin jurnala sağlam fikirli və düşüncəli günlər keçirməsini arzulayıram. Eyni zamanda, jurnalınızın bütün yaradıcı kollektivini işgüzarlıqla dolu 2018-ci ilə başlanğıc etməsini və bütün ili belə yaradıcı mühitdə keçirməsini diləyirəm!

**Fərhad Bədəlbəyli,**
**Azərbaycan Musiqi Akademiyasının rektoru, Xalq artisti, Dövlət mükafatı laureatı, professor,**

Arzular, arzular...



**Əziz soydaşlarımız!**

2017-ci il Azərbaycan kinematoqrafçıları üçün çox uğurlu il oldu. Biz bir çox tədbirlər, yubileylər, anım günləri, dünya səviyyəli rejissorlar və aktyorlarla görüşlər keçirdik. Bundan əlavə, tərəfimizdən elan olunan "Zaman və məkan" ssenari müsabiqəsi də uğurla həyata keçirildi. Eyni zamanda Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı tərəfindən fərqlənən tələbəyə təqaüd də təsis etmişik. Milli Kino günündə bir çox kino xadimlərinə mükafatlar vermişik. İttifaqın "Milli kino" mükafatı da öz sahibinə təqdim edilib.

2018-ci ildə isə kinomuzun 120 illiyi qeyd olunacaq. Bununla bağlı Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı bir çox tədbirlər, layihələr, müsabiqələr, beynəlxalq tədbirlər həyata keçirəcək. Milli Kino günündə bir daha kino xadimlərinə, ittifaqın üzvlərinə mükafatlar veriləcək, təltiflər ediləcək. Bununla yanaşı, bir çox yerli təşkilatlarla tədbirlər, müsabiqələr planlaşdırılıb. Kinomuzun 120 illiyi münasibətilə KİV-lə bərabər, tədbir və müsabiqə də nəzərdə tutulmuşdur.

Qeyd etmək istərdim ki, **"Mədəniyyət.AZ"** jurnalı da milli kinomuzun təbliğatçısı missiyasını layiqincə yerinə yetirir.

Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il bayramı gəlir. Bu münasibətlə mən əziz xalqımızı, bütün dünyada yaşayan azərbaycanlıları ürəkdən təbrik edirəm. Onlara cansağlığı, xoşbəxtlik, bol ruzi-bərəkət, səadət, rifah dolu həyat arzulayıram. 2018-ci ildə də Prezidentimizə və onun xanımına, ailə üzvlərinə möhkəm cansağlığı, uğurlar, nailiyyətlər diləyirəm. Uca Yaradan onları və xalqımızı qorusun!!! Daim əmin-amanlıq olsun, tezliklə bütün torpaqlarımız işğaldan azad edək və növbəti yeni ilimizi Şuşada, Xankəndində keçirək.

**Şəfiqə Məmmədova,**
**Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti, Dövlət mükafatları laureatı, professor**

Arzular, arzular...